


**Qaxda ilk kitabxana qiraətxana şəklində 1906-cı ildə yaradılıb. 2006-cı ildə rayon kitabxanasının 100 illiyi qeyd edilmişdir. Qiraətxana kimi fəaliyyətə başlamasına baxmayaraq, hazırda müasir kitabxana kimi fəaliyyət göstərir, eyni funksiyanı yerinə yetirir. Xalqa xidmət etmək, illərdən keçib gələn kitab sərvətini qoruyub saxlamaq, gələcək nəsillərə çatdırmaq kimi məqsədləri qarşıya qoyan kitabxana 64 filialı özündə birləşdirir, 344 min kitab fondu ilə 25 min oxucuya xidmət edir.**

# Oxucu marağı

Fondda dörd dildə ədəbiyyat var: Azərbaycan, rus, gürcü və ingilis. Kitabxanada 105 nəfər kitabxanaçı çalışır ki, onların da 14-ü ali təhsillidir.Qax rayon kitabxanası 2003 və 2005-ci illərdə ABŞ-nın Azərbaycandakı səfirliyi tərəfindən maliyyələşən kitabxana layihələrində uğurla iştirak etmişdir. Belə ki, 2003-cü ildə təşkil olunan "C.Cabbarlı adına Qax rayon kitabxanasının internet şəbəkəsinə qoşulması" layihəsinə görə kitabxanaya bir dəst kompüter hədiyyə olunmuşdur. İkinci layihəyə əsasən kitabxanada RKMM (Reqional Kitabxana Məlumat Mərkəzi) yaradılmışdır və kitabxanaya 5 dəst kompüter bağışlanmışdır. Kitabxanaçılar kompüterdə işləməyi öyrənmişlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən Qax rayon MKS-nin kitab fonduna 61 min latın qrafikalı ədəbiyyat hədiyyə olunmuşdur.

Bildiyimiz kimi, Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli sərəncamı ilə "Kitabxana-informasiya sahəsində 2008-2013-cü illərdə inkişaf üzrə Dövlət Proqramı"na uyğun olaraq respublika kitabxanalarının informasiyalaşdırılması işi həyata keçirilir.

2010-cu ilin may ayında Qax rayonunda yaradılan ilk elektron kitabxana rayon mərkəzi kitabxanasında təsis edilmişdir. Hazırda 88 adda 4220 nüsxə kitab elektron yaddaşa köçürülmüşdür. Kitabxananın veb saytı da hazırdır. Saytda Qax rayonu və onun ziyalıları, görkəmli şəxsləri, abidələri, turizm gözəllikləri, muzeyləri haqqında, kitabxana nailiyyətləri, keçirdiyi tədbirlər, hazırladığı biblioqrafik vəsaitlər və kitabxana üçün hüquqi normativ sənədlər haqqında məlumat yerləşdirilmişdir. İstənilən şəxs veb sayt vasitəsilə bu məlumatlarla tanış ola bilər.

Qax rayon MKS "ELNİT" Kitabxanalar və Yeni İnformasiya Texnologiyaları Beynəlxalq Assosiasiyasının üzvlüyünə qəbul edilmişdir. Kitabxananın ünvanına assosiasiyanın prezidenti Y.L.Ştrayberq tərəfindən imzalanmış üzvlük sertifikatı daxil olmuşdur.

Qeyd edək ki, Azərbaycanda 25 kitabxana "ELNİT" Assosiasiyasının üzvüdür. Bu il 130 ölkənin iştirak etdiyi "Krım-2010" Beynəlxalq Kitabxana Konfransında "ELNİT" Assosiasiyasına hesabat-seçki keçirilmişdir və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Kitabxana işi sektorunun müdiri L.Məmmədova 11 nəfərlik idarə heyətinə üzv seçilmişdir.

2007-ci ildə Mədəniyyət və Turizm Nazirliyi kollegiyasının 6/1 saylı qərarına əsasən Qax rayon MKS-nin fəaliyyəti müsbət qiymətləndirilmişdir.

2008-ci ildə Qax rayon MKS-nin direktoru Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən "LİB-KOM-2008" Kitabxanaçıların Beynəlxalq Konfransında iştirak etmişdir.



2009-cu ildə kitabxananın rəhbərliyi yaxşı işinə görə Mədəniyyət və Turizm naziri cənab Ə.Qarayev tərəfindən Fəxri Fərmanla təltif olunmuşdur.

Yeri gəlmişkən qabaqcıl əməkdaşlarımızdan Nəhayət Nurməmmədova (Qum kənd kitabxanası), Güllü Rəhimova (İlisu kənd kitabxanası), Gülmayə Məmmədova (Əmbərçay kənd kitabxanası), Xəccət Məmmədova (Əmircan kənd kitabxanası) və Bacıxanım Əliyevanın (Qax rayon kitabxanası) adlarını da çəkmək olar. Eyni tərifəlayiq sözləri Zərnə, Güllük, İbaxlı, Qaratala, Almalı, 51 saylı və Qaxingiloy kənd kitabxanalarının ünvanına da şamil etməliyik.

Uğurlarımız çoxdur. Bu bizi vəzifəmizə daha məsuliyyətlə yanaşmağa ruhlandırır. Çalışırıq ki, bu nəcib işin öhdəsindən ləyaqətlə gələk, kitabxana sərvətinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılması, onların əhali arasında geniş təbliğ edilməsi, bəşəri dəyərlərə yiyələnilməsi, eləcə də, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım göstərilsin.

**A. QƏHRƏMANQIZI**

